**”Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın 2013-cü il üzrə nəzərdə tutulan tədbirlərin icrasına dair məlumatlar**

| Sıra №-si | Tədbirlərin adı | İcra müddəti | İcraçılar | Tapşırığın icrası ilə bağlı görülmüş işlər |
|---|---|---|---|---|
| 1.2 | İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlərin keçirilməsi | 2012-2014-cü illər | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | Dövlət Statistika Komitəsi Aparatının əməkdaşlarının iştirakı ilə 2013-cü ilin mart ayının 28-də “İnformasiya azadlığının təmin edilməsi” mövzusunda treninq keçirilmişdir. |
| 2.1 | Dövlət orqanlarının öz fəaliyyəti barədə məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi | Mütəmadi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | Komitənin fəaliyyəti barədə illik məlumatlar, beynəlxalq əməkdaşlıq, normativ hüquqi aktlar, texniki normativ aktlar, statistika sahəsində baş verən yeniliklər, statistika orqanları tərəfindən hüquqi və fiziki şəxslərə göstərilən elektron xidmətlər və s. məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilir. |
| 2.2 | Dövlət orqanlarının öz fəaliyyəti barədə illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması | 2012-2015-ci illər | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | 2012-2013-cü illərin yekunları üzrə Dövlət Statistika Komitəsinin fəaliyyəti ilə bağlı yekun hesabatın ictimaiyyətə çatdırılması məqsədi ilə Komitənin rəsmi internet (www.stat.gov.az) səhifəsində yerləşdirilmişdir. |
| 2.3 | Dövlət orqanlarının öz fəaliyyəti barədə mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi | 2012-2015-ci illər | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | 2013-cü ilin yanvar ayında Komitə sədrinin iştirakı ilə KİV nümayəndələri üçün ölkənin sosial-iqtisadi inkişafının yekunları mövzusuna və 2012-ci ildə Dövlət Statistika Komitəsinin fəaliyyətinə həsr olunmuş mətbuat konfransı keçirilmişdir. |

| | | | | |
|---|---|---|---|---|
| 2.4 | Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi | Mütəmadi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | Dövlət Statistika Komitəsinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılması və məlumatların vətəndaşlar arasında təşviqi məqsədilə "Sahibkar statistika ilə bağlı nəyi bilməlidir" adlı məlumat kitabçası hazırlanmış və sahibkarlara paylanması üçün yerli statistika orqanlarına göndərilmiş, sahibkarlıq subyektləri üçün suallar tərtib edilmiş, eyni zamanda "Rəsmi statistika sahəsində Azərbaycan Respublikasının əsas normativ hüquqi aktları" kitabı yenidən hazırlanmış və nəşr edilərək yerli statistika orqanlarına və şöbələrə paylanmış və hər iki material Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. |
| 4.2 | Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması | 2012-2013-cü illər | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | İcrası 2014-cü ildə nəzərdə tutulan tədbirlər planı ictimai maraq kəsb etdiyindən, onların "2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı"nda və Dövlət Statistika Komitəsinin iştirak etdiyi digər dövlət proqramlarında layihələri Komitənin saytında yerləşdirilmiş, aidiyyəti təşkilatlara razılaşmaya göndərilmiş, ayrı-ayrı vətəndaşlar tərəfindən verilən təkliflər də nəzərə alınaraq tədbirlər planına daxil edilmişdir. |
| 4.3 | İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif | Mütəmadi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | Son illərdə "Statistik işlər proqramı" və "Rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələrə dair illik tədbirlər planı təsdiqə təqdim olunmazdan əvvəl ictimaiyyətə çatdırılmaq və onların rəyini öyrənmək məqsədilə Dövlət Statistika Komitəsinin internet səhifəsində yerləşdirilir. |

| | | | | |
|---|---|---|---|---|
| | və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.) | | | |
| 4.4 | Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi | Mütəmadi | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | Komitənin şöbələrinin iştirakı ilə "Açıq qapı" gününün keçirilməsi qrafiki hazırlanmış və bu tədbirin icrası məqsədi ilə 2013-cü ilin iyun ayının 21-də Dövlət Statistika Komitəsində ictimaiyyət, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri üçün "Açıq qapı" günü keçirilmişdir. |
| 5.2 | Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi | 2013-20015-ci illər | Mərkəzi və yerli icra hakimiyyəti orqanları | Statistik məlumatlardan səmərəli istifadəni, lazım olan göstəricilərin statistik nəşrlərdə və internet səhifəsində axtarışını asanlaşdırmağı, eləcə də statistik göstəricilərin hesablama metodologiyaları haqqında izahatların verilməsi, elektron xidmətlər barədə ictimai təqdimatların keçirilməsini təmin etmək məqsədilə Komitədə statistik məlumatların istifadəçiləri və eləcə də Komitənin tabeliyində olan və ya onun strukturuna aid olan qurumların əməkdaşlarının iştirakı ilə seminarlar və kurslar təşkil olunmuşdur. İl ərzində Aparatın müxtəlif şöbələri tərəfindən ümumilikdə təşkil olunmuş 10 seminarda aidiyyəti təşkilatlardan 130 nəfər nümayəndə iştirak etmişdir. |
| 5.4 | Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin | 2013-2014-cü illər | Mərkəzi icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının | 2013-cü il üzrə statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə hüquqi və fiziki şəxslərə tətbiq edilən inzibati cərimələrin elektron şəkildə ödənilməsi qaydaları hazırlanaraq Dövlət Statistika Komitəsinin 03.12.2012-ci il tarixli, 97/07 |

| | | | | |
|---|---|---|---|---|
| | təkmilləşdirilməsi | | Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | nömrəli qərarı ilə təsdiq olunaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Hazırda bu ödənişlər elektron qaydada həyata keçirilir. |
| 9.2 | Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması | Mütəmadi | Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları | Hamı üçün açıq olan statistik məlumatlar mütəmadi olaraq Komitənin rəsmi internet (www.stat.gov.az) səhifəsində yerləşdirilir və ictimaiyyətə çatdırılır. |
| 9.4 | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi | 2012-2015-ci illər | Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya | Komitə tərəfindən vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi göstərilməmişdir. |